Ədəbiyyat qəzeti

22 may / 2021

**Uluslararası Türk Kültürü Təşkilatının Genel Sekreteri Düsen Kaseinov Xalq şairi Fikrət Qocanın vəfatından duyduğu kədərlə bağlı Azərbaycanın Mədəniyyət naziri Anar Kərimova başsağlığı teleqramı ünvanlayıb. Teleqramda deyilir:**

"Hörmətli nazir! Türk Dünyasının yetişdirmiş olduğu önəmli dəyərlərdən biri olan ünlü Xalq şairi və Azərbaycan Yazıçılar Birliyinin 1-ci katibi hörmətli Fikrət Qocanın vəfatını dərin üzüntü ilə qarşıladım.

Çağdaş ədəbiyyatımızın önəmli isimlərindən biri olan şairin vəfatı, Türk Dünyası üçün böyük itki olmuşdur. Uluslararası Türk Kültürü Təşkilatı TÜRKSOY Genel Sekreterliyi, Türk Dünyası kültür sənət camiası və şəxsim adına mərhuma Allahdan rəhmət, kədərli ailəsinə, sevənlərinə və Azərbaycan xalqına başsağlığı verirəm".